*Rüstəmov Xaliq, doktorant,*
*Bakı Dövlət Universiteti,*
*Email: xrabbasali@gmail.com*

# ÇİN İQTİSADİYYATINDA RƏQABƏTİN DAVAMLILIĞINI TƏMİN EDƏN AMİLLƏR

**Çin iqtisadiyyatında rəqabət qabiliyyətli məhsullar istehsalı.** Bu araşdırmada Çinin rəqabət qabiliyyəti məhsul istehsalı tədqiq edilir. Çin iqtisadiyyatı dünyanın ən sürətlə böyüyən və ən çox ixrac edən ölkəsidir. 1978-ci ildə iqtisadi islahatlarla dünyaya inteqrasiya edən Çin, ilk rəqabətli sıçrayışlarını ucuz əmək tutumlu məhsullarla etdi. Bu gün hələ də əmək tutumlu istehsal üstünlüyünə malik olan Çin, həm də qabaqcıl texnoloji məhsullar istehsalıyla dünya bazarına təsir etmək gücü qazanmışdır. Bu irəliləyişlərdə ölkə hökumətinin dəstəyi böyükdür. Hökumətin müəyyən etdiyi strategiyalar nəticəsində Çinin yüksək texnologiyalı məhsullarının dünya bazarındakı rəqəmlərinə nəzər salsaq, strategiyanın müsbət nəticəsi nəzərə çarpır, istehsal mallarının rəqabət qabiliyyətinin kənd təsərrüfatı mallarından daha yüksək olduğu müəyyən edilir. Bundan əlavə, Çinin aşağı və orta texnologiya sektorlarında rəqabət qabiliyyətinin yüksək olduğu, yüksək texnologiyalı sektorlarda rəqabət qabiliyyətinin artdığı müşahidə edilmişdir. Çin iqtisadiyyatının böyüməsi dünya iqtisadiyyatına böyük təsir göstərir. Çində işçi qüvvəsi bol və ucuz olduğundan ölkə əmək tutumlu məhsullarda üstünlük qazanır. Çinin ticarət artımı, inkişaf etməkdə olan ölkələrin ixracatı artımından fərqlidir. Sürətlə inkişaf edən iqtisadiyyatlar ixrac etdikləri məhsulları şaxələndirir, məhsulun keyfiyyətini yaxşılaşdırır və ixracları artdıqca yeni bazarlar genişlənir.

Çin tədricən ölkə iqtisadiyyatına nəzarətli şəkildə rəqabət proseslərinə başladı. Bu çərçivədə mərkəzi planlaşdırmadan imtina edildi və bazar nəzarət altında rəqabətə açıldı. Çin rəqabət şərtləri ilə ayaqlaşa bilməyən və itkilər verməyə başlayan dövlət müəssisələri üçün xüsusi plan hazırlamışdır. Müvafiq olaraq, kiçik ölçülü və zərərlə işləyən müəssisələrə xarici tərəfdaşların tapılması onların özəl müəssisəyə satılmasına və ya birləşməsinə imkan vermiş, uğursuz olanların isə ləğv edilməsinə qərar verilmişdir. Böyük və nəhəng dövlət müəssisələrini dəstəkləmək qərarı verilmiş, bu çərçivədə gələcəkdə strateji əhəmiyyət kəsb edəcəyi düşünülən sektorlar müəyyən edilmiş və maşınqayırma, informasiya texnologiyaları, elektronika, tikinti, neft-kimya sektorlarında fəaliyyət göstərən kiçik və orta sahibkarlıq müəssisələrinə dəstək verilməsi və onların səmərəliliyinin artırılması nəzərdə tutulmuşdur.

Qloballaşma ilə Çinin ucuz və bol işçi qüvvəsindən faydalanmaq üçün ölkəyə daha çox kapital axır və beləliklə, ölkənin qeyri-kənd təsərrüfatı sektorlarını stimullaşdırır. Sürətlə sənayeləşən Çin istehsal modellərinə, ticarət axınlarına, maliyyə axınla-

rına, qlobal və regional idarəçiliyə təsir göstərir. Dünyada istehsal edilən elektron cihazlardan müəyyən məhsullara baxdığımızda, dünyada ümumi DVD və rəqəmsal kamera istehsalının təxminən yarısının Çin və Honq Konq tərəfindən istehsal edildiyi görülür. Çin hazırda rəqabət üstünlüyü ilə qida və içki, tütün, kimya məhsulları, rezin sənayesi, avtomobil və motosikletlərdən başqa nəqliyyat avadanlığı, kağız sənayesi və ofis maşınları qrupunun istehsalında öndədir. Bu məhsul qrupunda saydığımız məhsulların orta və uzunmüddətli inkişaf şansının yüksək olduğu bildirilir. Çinin xidmət sektoruna baxdığımızda rəqabət üstünlüyünün gələcəkdə əhəmiyyətli olacağı görülür. Xüsusilə inkişaf etmiş ölkələrin rəqabət üstünlüyünə malik olduğu maliyyə xidmətləri, telekommunikasiya və peşəkar xidmətlər kimi sahələrdə təsirli olacaq. Çin kimi böyük əhalisi olan bir ölkə inkişaf etmiş ölkələrə dünya bazarında böyük bazar payı ilə müxtəlif məhsullar təklif etməkdədir. Çinin hələ də zəif rəqabətqabiliyyətli olduğu bilinən avtomobil istehsalı, əczaçılıq sənayesi, neft emalı və neft-kimya sahələrində rəqabət qabiliyyətini inkişaf etdirmək və qismən təkmilləşdirmək şansının olduğu müşahidə edilir.

Çində məşğulluq siyasətinin islahatının ümumi islahat prosesindən geridə qalan bir mövqedə olmadığı müəyyən edilmişdir. Planlaşdırılan dövrdə məşğulluq sistemi üç əsas elementi əhatə edirdi. Birincisi, ümumi şəhər məşğulluğu üçün xüsusi siyasətdir. İkincisi, əhalini və işçi qüvvəsini kənd və şəhərə bölən ev təsərrüfatlarının uçotu sistemidir. Üçüncüsü, əsas ehtiyacların ödənilməsi siyasəti çərçivəsində kvota sistemi, şəhər özəl sosial təminat siyasəti və digər dövlət xidmətlərinin göstərilməsi siyasəti daxil olmaqla həyata keçirilən sosial xidmətlər siyasətidir. Çin inkişaf etmiş ölkələrlə müqayisədə işçi qüvvəsindən daha çox asılıdır. Çində gəlir səviyyələri ölkə daxilindəki bölgələr arasında çox dəyişir. Bu, Çinin istehsal edə və ixrac edə biləcəyi məhsul növlərinə təsir edə bilər.

Rəqabətlilik anlayışı bir ölkənin dünya mal və xidmətlərin ticarətindəki payını göstərir. Rəqabət qabiliyyətinin ölçülməsi üçün çoxlu indekslər olsa da, ədəbiyyatda ən çox istifadə olunan metod Balassa tərəfindən hazırlanmış “Aşkarlanmış Müqayisəli Üstünlük” metodudur. Aşkarlanmış Müqayisəli Üstünlük (RCA) metodundan istifadə edərək, 2006-2015-ci illər arasında Çinin rəqabət qabiliyyəti ikitərəfli və sektorlar əsasında araşdırılmışdır.

Aşkarlanmış Müqayisəli Üstünlük metoduyla hesablanan RCA dəyəri +50-dən böyükdürsə, bu, ölkənin bu sektorda rəqabət qabiliyyətinə malik olduğunu, RCA dəyəri -50 ilə +50 arasında olduqda, ölkənin bu sahədə rəqabət qabiliyyəti baxımından kritik sərhəddə olduğunu və bu dəyər -50-dən aşağı olarsa, ölkənin bu sektorda rəqabət qabiliyyətinin olmadığını göstərir. Çində 2006-2015-ci illər arasında Müqayisəli Üstünlüklər Metodu ilə hesablanmış 10 illik dövrün rəqabət qabiliyyəti göstəricilərinin təhlilində, Çinin rəqabət güçünə sahib olan sektorlarının illər ərzində dəyişdiyi görülmüşdür. 2006-2015-ci illər arasında Çinin daim rəqabət aparan bölmələrinin sayı 46, qeyri-rəqabətli bölmələrinin sayı 27-dir ki, bu da Çinin bir çox sahədə beynəlxalq ticarətdə rəqabət qabiliyyətinə malik olduğunu göstərir.

2001-ci ildə Çinin dünya iqtisadiyyatına açılması ilə böyük artımı da qlobal iqtisadiyyatın inkişafını maliyyələşdirir. Digər tərəfdən, bu vəziyyət digər ölkələrin iqtisadi artım göstəricilərinə də təsir edir. Yəni Çinin böyüməsi digər ölkələrə də sərf edir. Yarana biləcək üstünlüklər digər ölkələrin yeni imkanlara və çağırışlara uyğunlaşma

dərəcəsindən də asılıdır. Ticarətin liberallaşdırılması Çində daxili iqtisadiyyatın böyüməsinə müsbət təsir göstərmişdir. Bu liberallaşma Çinin xarici ticarətini də dəyişdi və ticarət modelinin strukturuna təsir etdi. Çinin inkişafının digər mühüm amili onun ixracının keyfiyyətinin və müxtəlifliyinin güclü artmasıdır. Ölkə böyük bir iqtisadiyyat olaraq kiçik və orta iqtisadiyyatlara nisbətən mütləq ifadədə daha çox ixrac edir. Çin digər əmtəələrdən daha çox həcmdə, daha çox çeşiddə və daha müxtəlif keyfiyyətdə ixrac malları istehsal edir. Bütün bu amillər Çinin dünya iqtisadiyyatında rəqabət şəraitində üstünlüyünü göstərir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. A.Tuerxun. Çin'in küresel rekabet güçünün açıklanmış karşılaştırmalı üstünlükler yöntemine göre değerlendirilmesi. İstanbul Ticaret Üniversitesi Dış Ticaret Enstitüsü Uluslararası Ticaret Anabilim Dalı Uluslararası Ticaret Yüksek Lisans Programı. İstanbul – 2017. 70 s.

2. Çeştepe H. (2012). Çin'in dış ticaretinin gelişimi, Dünya Ticaret Örgütü'ne üye-lik öncesi ve sonrasında dünya ticaretine etkileri, Zonguldak: Uluslararası Yönetim İktisat ve İşletme Dergisi, Cild 8, № 17, s.45-62.

3. E.Şahbudak., D.Şahin. Çinin Dış Ticaret Performansı Ve Sektörel Rekabet Güçünün Ölçümü. Akademik Bakış Dergisi, 2016, Sayı: 54, s. 242-257.

4. H.Özekicioğlu, B.Kılınç, C.Kılıç. Çinde yapısal değişim ve çin ekonomisinin küresel pazarda rekabet edebilirliği, Niğde Üniversitesi İİBF Dergisi, 2014, Cilt: 7, Sayı: 1, s. 56-66.

5. İ.Unay. Çin ekonomisinde rekabet avantajı sağlayan etkenler ve rekabetin sürdürülebilirliği. Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü İktisat Anabilim Dalı İktisat Teorisi Bilim Dalı. Bursa – 2005.

6. https://www.worldbank.org (01.04.2022).